UOT 342.9

# AZƏRBAYCANDA QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İNZİBATİ-HÜQUQİ STATUSUNUN BƏZİ PROBLEMLƏRİNƏ DAİR

**R.İ.NƏCƏFQULİYEV**
***Azərbaycan Respublikası DİN-in Polis Akademiyası***
***Admin_74@inbox.ru***

*Məqalədə qaçqın və məcburi köçkünlərin inzibati-hüquq statuslarının elementləri sırasına daxil olan hüquq və azadlıqların təminat mexanizmi milli və beynəlxalq təcrübə əsasında təhlil edilmişdir. İlk növbədə şəxsiyyətin hüquqi statusunun mühafizəsi mahiyyətcə hüquq və azadlıqların zəmanət problemi kimi müzakirə olunmuş və qanunvericilikdə nəzərdə tutulan müvafiq hüquqi təminat sisteminə aydınlıq gətirilmişdir. Tədqiqat çərçivəsində şəxsiyyətin hüquq, vəzifə və qanuni maraqlarının təminatları sisteminin müzakirəsində fərdin subyektiv hüquqlarının mühafizəsi və pozulduğu təqdirdə, bərpası tədbirləri də araşdırılmışdır.*

*Daha sonra, dövlət quruluşunun və cəmiyyətin siyasi sisteminin əsaslarının təşkilində önəm verilən insan və vətəndaş, o cümlədən qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusunun siyasi təminatları qanunvericilik baxımından tədqiq edilmişdir. Qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusunun ümumi və xüsusi təminatları nisbət etibarilə fərqləndirilməklə, hər birinin mahiyyətinə tam aydınlıq gətirilmişdir.*

Açar sözlər: hüquq, şəxsiyyət, qaçqın, məcburi köçkün, status, təminat

Hüquq münasibətləri sistemində şəxsiyyətin statusunu müəyyənləşdirən konstitusion müddəalar əsas prinsiplərdən biri kimi şəxsiyyətin hüquq və azadlıqlarının müdafiəsini özündə ehtiva edir. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində deyilir ki, «insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikası vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir (1, 7). Əsas qanunda nəzərdə tutulan bu kimi ali məqsədə şəxsiyyətin hüquqlarının həyata keçirilməsi, müdafiəsi və təminatlarına dair effektiv mexanizmlərin yaradılması və onun məhsuldar fəaliyyəti ilə nail olunur. Məsələn, dövlətin səhiyyə, sosial-müdafiə, təhsil, polis, gömrük, prokurorluq, məhkəmə və s. orqanlarının gündəlik fəaliyyəti şəxsiyyətin həyat və sağlamlığının, onun həyati maraqlarının reallaşmasına və qorunmasına xidmət edir.

Akademik R.Mehdiyev «Qloballaşma dövründə dövlət və cəmiyyət» elmi məqaləsində qeyd edir ki, ictimai-iqtisadi formasiyanın dəyişməsi ilə cəmiyyətdə kütləvi şüurda transformasiya baş verir. Həmin transformasiya bütövlükdə cəmiyyətdə yeni siyasi oriyentirlərin formalaşmasına əhəmiyyətli

təsir göstərir, nəticə etibarilə funksional baxımdan yeni siyasi təşkilatların yaradılmasına gətirib çıxarır (9, 1).

Hesab edirik ki, formalaşan yeni siyasi oriyentirlər şəxsiyyətin inzibati hüquqi statusunun məzmununa da mütənasib təsirini göstərəcəkdir. Ölkəmizdə son dövrlərdə siyasi hüquq və vəzifələrin həyata keçirilməsi prosesində vətəndaşlarda aktivliyin artması, gender bərabərliyinin təmin edilməsi və s. buna əyani misal ola bilər.

Məlum olduğu kimi, XX əsrin 50-ci illərində şəxsiyyətin aktivləşməsi ilə partisipaton demokratiya nəzəriyyəsi meydana çıxmışdır. Həmin vaxtdan etibarən şəxsiyyətin hüquqi statusu həyatın bütün sahələrində ön plana çəkilmişdir (3, 83). Adı çəkilən nəzəriyyənin məzmunundan aydın olur ki, şəxsin siyasi aktivliyi demokratiyanın bərqərar olması və saxlanmasına stimul yaradır.

İnsan hüquq və azadlıqlarının hüquqi təminat mexanizmi, birincilərin müdafiəsi mexanizmi ilə eynilik təşkil etmir. Daha dəqiq desək, hüquq və azadlıqların müdafiəsi mexanizmi təminat mexanizminin tərkib hissəsidir. Beləliklə, hüquq və azadlıqların hüquqi təminat mexanizmi geniş anlayışdır və onun tərkib elementlərindən biri də hüquq və azadlıqların zəmanətidir.

Hüquq və azadlıqların təminatı - insan həyatının bütün sahələrində öz iştirakını gücləndirməyə və genişləndirməyə can atan hakimiyyətin məhdudlaşdırılması üçün özünəməxsus zahiri mexanizm kimi xarakterizə edilə bilər (20, 27). L.Voyevodinin fikrincə, «təminat» - şəxsiyyətin hüquqi statusu əsaslarında ümumidən xüsusiyə, qanunda olan mümkünlükdən həqiqətə keçidi təmin edən etibar ediləsi körpüdür. Onun fikrincə, «təminatlar hüquqi status üçün bütövlükdə və onun ayrı-ayrılıqda hər bir elementi üçün zəruridir. Məhz həmin təminatların vasitəsilə hüquq, azadlıq və vəzifələr obyektiv aləmdə gerçəkləşir (16, 27).

Hüquq və azadlıqların zəmanəti haqqında hüquq elmləri doktoru, M. B. Əhmədovun mövqeyi nəzəri və təcrübi baxımdan xüsusi əhəmiyyətə malikdir. Müəllifin fikrincə, Azərbaycan Respublikası Konstitusiyasında insan hüquq və azadlıqlarının hüquqi qarantiyasının ümumi prinsipləri müəyyən edilmişdir. Həmin qarantiyalar əsas Qanunun 1-2-ci bölmələrində («Xalq hakimiyyəti» və «Dövlətin əsasları»), xüsusilə 1, 2, 3, 6, 7, 10, 12, 13, 15, 16-cı maddələrində təsbit edilmişdir. Konstitusiyanın 3-cü bölməsində fərdin hüquqlarının maneəsiz həyata keçirilməsinə tam sistemli hüquqi qarantiya təsbit olunmuşdur (14, 159).

Təminatlar şəxsiyyətin hüquqi statusunun ən dinamik və vacib elementidir. Onların reallaşdırılmasının effektivliyi əlverişli şəraitin mövcudluğundan bilavasitə asılıdır. Burada həm dövlət, həm də yerli özünüidarəetmə orqanlarının, habelə ictimai birliklərin fəaliyyətinin məhsuldarlığı arzuolunandır.

Hüquq ədəbiyyatlarında şəxsiyyətin hüquqi statusunun mühafizəsi nisbət etibarilə daha çox hüquq və azadlıqların zəmanət problemi kimi müzakirə obyektini təşkil edir. Nəzərə almaq lazımdır ki, hüquqi statusun məzmunundakı elementlərdən biri də vəzifədir (15, 108). Statusun konstruksiyasına daxil olan vəzifə element olaraq hibrid elm hesab edilən Sosiologiya elminin də

tədqiqat predmetinə daxildir.

Sosiologiya elmində şəxsiyyətin sosial statusu hüquq sosiologiyası çərçivəsində tədqiq edilir. Bu yanaşma əsasən hüquqi aktların qəbul olunması və ictimai həyatda tətbiq edilməsi məsələlərindən bəhs edir. Təbii ki, şəxsin hüquqi statusunun elementlərindən biri olan hüquqi vəzifə davranışın ictimai və şəxsi motivlərinə aid edilən əməlin başqaları üçün praktiki faydası, cəmiyyət qarşısında borc, əməlin ictimai faydalılığına əminlik kimi təzahürlərlə qarşılıqlı əlaqədədir (13, 236).

L.Voyevodin hesab edir ki, «vəzifələr üçün təminatlar bilavasitə hüquq və azadlıqların həyata keçirilməsinə xidmət etdikdə əhəmiyyətli hesab olunur (16, 32).

Hüquq və azadlıqların zəmanəti şəxsin, o cümlədən qaçqın və məcburi köçkünlərin yalnız hüquq və azadlıqlarının reallaşdırılması üçün deyil, həm də onlar tərəfindən hüquqi vəzifələrin icrasına xidmət edir.

Nəzəri və təcrübə baxımdan insan və vətəndaş hüquqlarının uzlaşdırılmış təminatlar sisteminin yaradılması hüquqi dövlətin qurulması üçün vacib şərtdir.

D.N.Baxrax şəxsiyyətin hüquqi müdafiəsinin iki əsas istiqamətini qeyd edir:

1) vətəndaşların, hüquqi şəxslərin cinayətlərdən və digər hüquqpozmalardan müdafiəsi;

2) vətəndaşların, hüquqi şəxslərin dövlət-hakimiyyət orqanlarının hüquqazidd hərəkətlərindən (hərəkətsizliyindən) müdafiəsi (15, 29).

Qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusunun təminatları haqqında məsələni nəzərdən keçirərkən N.Xamanevanın fikirlərinə diqqət yetirmək təhlilimiz üçün maraqlı olar. Müəllif hesab edir ki, «əgər qanun ölkədə siyasi, iqtisadi vəziyyətə uyğundursa, özünün müddəalarının həyata keçirilməsi mexanizmlərinə malikdirsə, habelə pozulmasına görə orqanların və vəzifəli şəxslərin məsuliyyətini nəzərdə tutursa, məhz qanun əsas zəmanətçi ola bilər». Daha dəqiq desək, normativ-hüquqi aktlarda hüquq və vəzifələrin bəyan edilməsi kifayət deyil. Belə ki, qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusu təminatlarla da təmin olunmalıdır. Dövlət isə öz növbəsində həmin hüquq və vəzifələrin həyata keçirilməsi üçün bütün qanuni vasitələrlə zəmanət yaratmalıdır (19, 35).

N.Vitruk hesab edir ki, «şəxsiyyətin hüquq, vəzifə və qanuni maraqlarının təminatları dedikdə, hər bir insan üçün onların etibar olunan mühafizəsini (müdafiəsini) və faktiki reallaşdırılmasını təmin edən şərtlər və vasitələr başa düşülür» (17, 58).

L.Popovun mövqeyinə görə fərdin inzibati hüquqi statusunun hüquqi təminatları qanunlarda və qanunqüvvəli aktlarda maddiləşir. Onun məzmununda fərdin subyektiv hüquqlarının mühafizəsi və pozulduğu təqdirdə, bərpası tədbirləri cəmləşir (18, 119).

Hüquq nəzəriyyəsində formalaşan yanaşmaya əsasən, məzmunu və xa-

rakterinə görə zəmanətin təsiri ümumi və xüsusiyə bölünə bilər. Ümumi təminatlar hüquq və vəzifələrin həyata keçirilməsi mümkünlüyünü təmin edən müəyyən iqtisadi, ideoloji, siyasi şərait və şərtləri qismində çıxış edir (15, 127). Xüsusi (hüquqi) təminatlar qismində isə hüquq normalarının məcmusu nəzərdə tutulur. Məhz onların vasitəsilə hüquq və vəzifələrin həyata keçirilməsi və müdafiəsi nizama salınır.

Hesab edirik ki, şəxsiyyətin inzibati-hüquqi statusunun bütün növ təminatları qarşılıqlı əlaqədə və sistem şəklində fəaliyyət göstərir.

Qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusunun ümumi təminatları arasında birinci qrupu iqtisadi təminatlar təşkil edir. Dövlət şəxsiyyətin iqtisadi firavanlığını arzuolunan səviyyədə təmin edə bildikdə, göstərilən kateqoriyalı şəxslərin hüquq və azadlıqları tam həcmdə və etibar olunacaq şəkildə həyata keçirilir.

Təcrübi baxımdan iqtisadi təminatlara maddi sərvətlər və dövlətin iqtisadi vəziyyəti aid edilə bilər. Məsələn: «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı» çərçivəsində ölkənin ayrı-ayrı şəhər və rayonlarında qaçqın və məcburi köçkün ailələri üçün 63 yeni qəsəbə salınmış, 100 min nəfərədək soydaşımız yeni evlərə köçürülmüş, 150-dən artıq təhsil, 50-yə yaxın səhiyyə, onlarla rabitə müəssisələri və mədəniyyət ocaqları tikilib istifadəyə verilmiş, müvafiq infrastruktur yaradılmışdır (8, 1).

Şəxsiyyətin hüquq və azadlıqlarının əsas iqtisadi zəmanəti mülkiyyət formalarının zənginliyi ola bilər. Bunların arasında isə şəxsiyyətin maddi müstəqilliyi, fərdi azadlığının zəmanətçisi kimi çıxış edən şəxsi mülkiyyətin əhəmiyyəti tədricən artmaqdadır. Hesab edirik ki, şəxsiyyətin mülkiyyət hüquqlarının arzuolunan səviyyədə təmin edilməsi üçün konstitusion hüquqlar sırasına aid edilən əmək, istirahət, sosial təminat, mənzil və s. hüquqlarının həyata keçirilməsi üçün siyasi, hüquqi, iqtisadi-sosial şərait mövcud olmalıdır.

Qeyd edilməsi zəruridir ki, qaçqınlar və məcburi köçkünlər azad əmək, istirahət, maddi təminat və s. hüquqlarda vətəndaşlar ilə bərabərdirlər. Lakin bəzi dövlətlərin milli qanunvericiliyinə əsasən əcnəbi vətəndaş olan qaçqınlar üçün iqtisadi təminatlar sahəsində müstəsna xarakter daşıyan məhdudiyyətlər mövcuddur. Həmin məhdudiyyətlər əsasən milli təhlükəsizliyin təmin edilməsi ilə izah edilə bilər. Məsələn: Rusiya Federasiyasında qaçqın statusu alan əcnəbilər qeyri-dövlət mühafizə fəaliyyəti ilə məşğul ola bilməz (18, 138).

İnsan və vətəndaş, o cümlədən qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusunun siyasi təminatlarının məcmusu dövlət quruluşunun və cəmiyyətin siyasi sisteminin əsaslarını təşkil edir. Azərbaycan Respublikası Konstitusiyasının preambulasında qeyd edildiyi kimi desək, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsi, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsinin təmin edilməsi siyasi təminatlarının nüvəsini təşkil edir. Bundan əlavə, Azərbaycan Respublikası Konstitusiyasının 1, 10, 24-71-ci

maddələri ilə təsbit olunan ali dəyərlər vətəndaşlar ilə yanaşı, habelə qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusunun siyasi təminatların əsasları sayıla bilər. Hüquq və azadlıqların müdafiəsi mexanizmi təminat mexanizminin tərkib hissəsi kimi xarakterizə edildiyindən, belə qənaətə gəlmək olar ki, ikincinin yalnız Konstitusiya ilə əhatə edilməsi qeyri-mümkündür (3, 121).

Hesab edirik ki, çoxsaylı hüquq və azadlıqlar sahə təminatı mexanizminə də malik olmalıdırlar. Burada isə publik hüquq münasibətlərinin əhatə olunduğu hüquq sahəsi kimi İnzibati hüququn tənzimləmə mexanizmi sahə təminatı rolunda çıxış edir.

Hüquq elmində formalaşan yanaşmalardan biri də hüquq və azadlıqların həyata keçirilməsi zamanı baş verən dəyişikliyin məzmununa görə statusun neqativ və pozitiv növlərə bölgüsüdür (16, 120). Neqativ hüquqi status dövlət müdaxiləsinə qarşı şəxsin nisbi müstəqilliyini, pozitiv hüquqi status isə, şəxsin hüquq və azadlıqlarının həyata keçirilməsi yönümündə dövlətin üzərinə öhdəliyin qoyulmasını nəzərdə tutur. Bölgümüzün birinci hissəsinə mülki və siyasi hüquq və azadlıqlar, ikinci hissəsinə isə sosial, iqtisadi və mədəni hüquq və azadlıqlar daxil edilir.

Publik hüquq münasibətləri çərçivəsində sahəvi hüquqi statusun sosial-hüquqi, mədəni-hüquqi, mühafizəedici – hüquqi status növləri fərqləndirilə bilər (15, 109). Şəxsiyyətin hüquq və azadlıqlarının reallaşdırılmasını azad seçkilər, siyasi zənginlik təmin etməlidir. Şəxsiyyətə münasibətdə hüququn aliliyini tanıyan güclü dövlət, şəxsiyyətin demokratik hüquqi vəziyyətinin zəmanətçisi olmaqla qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusunun təmin edilməsi üçün zəruri siyasi şərait yaradır.

Azərbaycan Respublikasında qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusunun sosial təminatlarını xarakterizə edərkən, sosial sahədə gedən yeniləşmə proseslərinin nəzərə alınması məqsədəuyğundur. Həmin proseslərdə dövlətin sosial siyasətinə böyük əhəmiyyət verilir. Məsələn, 2001-2009-cu illər ərzində Dövlət Neft Fondundan (612,9 milyon manat) və digər mənbələrdən (33,2 milyon manat) ayrılan 646,1 milyon manat vəsait hesabına 18190 ailə 81,8 min nəfər daimi məskunlaşmamış qaçqın və məcburi köçkünlər üçün 1016,8 min kvadrat metr sahəsi olan 63 qəsəbə və fərdi evlər, həmçinin 123 məktəb, 4 musiqi məktəbi, 37 uşaq bağçası, 45 tibb müəssisəsi, 33 rabitə evi tikilmiş, 542 kilometr yol, 645 kilometr su xətti, 1007 kilometr hava elektrik xətti çəkilmiş, 81,5 kilometr qaz, 33,1 kilometr kanalizasiya, 1,27 kilometr istilik xətləri çəkilmiş, 11 min hektarda irriqasiya işləri aparılmış, 537 müxtəlif gücə malik elektrik transformatoru quraşdırılmışdır (8).

Demokratik hüquqi dövlətin formalaşması şəraitində qanunçuluq rejimi möhkəm ideoloji təminatlara əsaslana bilər. Azərbaycan Respublikasının Konstitusiyasına görə sosial, irqi, milli və dini bərabərlik təsbit edilmişdir (1, 10). Bəzi mənbələrdə ideoloji təminatların vacib tərkib hissəsi kimi ictimai və fərdi şüur fərqləndirilir.

Ümumi təminatlar bir-birini tamamlayaraq, həm öz aralarında, həm də

hüquqi (xüsusi) təminatlarla sıx əlaqədə olur. Bəzi ədəbiyyatlarda qeyd olunur ki, şəxsi hüquq və azadlıqların hüquqi təminatları yalnız onlara dəqiq, ardıcıl xarakter verən müəyyən qayda və prosedurlar çərçivəsində mövcud ola bilər. Qanunla təyin edilmiş və hüquq-mühafizə mexanizmi ilə təmin olunmuş prosedurlardan kənarda hüquqi təminatlar öz müəyyənliyini itirir və nəzəri məcazilik xarakterini əldə edir. N.Vitrukun fikrincə, ölkədə qüvvədə olan hüquq normalarının bütün sistemindən başqa hüquqi təminatlar həm də hüquq və vəzifələrin konkretləşdirilməsinə, onların reallaşdırılması və müdafiəsi qaydalarının müəyyən edilməsinə yönəlmiş hüquqi vasitələr də aid edilir. Müəllif iddia edir ki, «hüquqi təminatlar şəxsiyyətin hüquq, azadlıq və vəzifələrinin müsbət reallaşdırılmasını və effektiv müdafiəsini bilavasitə təmin edir» (17, 139).

Hüquqi təminatlar mahiyyətcə qaçqın və məcburi köçkünlərin hüquq və azadlıqlarının həyata keçirilməsində arzuolunan vəziyyətin yaranmasına yönəlmişdir (19, 77). Buraya hüquqi vasitələr aid edilir. Məhz onların vasitəsilə qaçqın və məcburi köçkünlərin hüquq və azadlıqlarının sərhədləri konkretləşdirilir. Hesab edirik ki, hüquqi təminatlar qaçqın və məcburi köçkünlərin hüquq və azadlıqlarının, habelə vəzifələrinin pozitiv həyata keçirilməsinə xidmət edir.

Şəxsiyyətin inzibati-hüquqi statusu nəzərə alınmaqla hüquqi təminatların ümumi, xüsusi, universal və fərdi növləri fərqləndirilir.

Hüquqi təminatlar müdafiə üsullarına görə konstitusion-hüquqi, inzibati-hüquqi, mülki-hüquqi və prosessual təminatlar, qüvvədə olma məkanına görə dövlətdaxili və beynəlxalq və s. növlərə bölünür.

Hüquq ədəbiyyatlarında hüquqi təminatların müdafiə üsullarına görə növlərinin məzmunu haqqında məsələ araşdırılmayıb. Hesab edirik ki, qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusuna təsir baxımından reallaşdırma və müdafiə təminatlarının fərqləndirilməsi daha münasibdir.

Təcrübi cəhətdən reallaşdırma təminatları qaçqın və məcburi köçkünlərin hüquq və vəzifələrinin həyata keçirilməsində daha əlverişli şəraitin yaradılmasına yönəlmişdir. Bunlara aiddir: onların hüquq və vəzifələrinin hüdudlarını müəyyən edən (konkretləşdirən) hüquqi vasitələr, eləcə də onların həyata keçirilməsi ilə əlaqələndirilən hüquqi faktlar və s.

Sadalananlardan aydın olur ki, müdafiə təminatlarının əsas təyinatı qaçqın və məcburi köçkünlərin hüquq və vəzifələrinin normal reallaşdırılmasına maneə olan əngəllərin neytrallaşdırılmasından ibarətdir.

Qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusunun konstruksiyasına daxil olan müdafiə təminatlarına aiddir: hüquqpozmaları aşkar etmək məqsədilə hüquq subyektlərinin davranışında qanuniliyə nəzarət ölçüləri; hüquqpozmaların qarşısının alınması və s. hüquq - mühafizə ölçüləri; hüquq və vəzifələrinin mühafizəsinin prosessual formaları; hüquqpozmaların xəbərdar edilməsi və qarşısının alınması ölçüləri və s.

Reallaşdırma və müdafiə mexanizmləri semantik məzmun baxımından

fərqli olsalar da, öz aralarında sıx əlaqədədirlər. Adları çəkilənlər yalnız qarşılıqlı əlaqədə olan halda qaçqın və məcburi köçkünlərin hüquq və vəzifələrinin təminatı və reallaşdırılmasında keyfiyyətli mexanizm mümkün ola bilər.

Hüquq ədəbiyyatlarında hüquqi təminatların məzmunu haqqında üç mövqe formalaşmışdır. Birinci mövqeyə əsasən hüquqi təminatların məzmununun tərkibinə normativ-hüquqi vasitələrdən başqa, habelə dövlət-hakimiyyət orqanlarının və qeyri-hökumət orqanlarının fəaliyyəti də aid edilməlidir. İkinci mövqe tərəfdarları iddia edirlər ki, hüquqi təminatların məzmununun tərkibinə yalnız müəyyən növ hüquq normaları (normativ-hüquqi vasitələr) aid edilməlidir. Üçüncü mövqenin nümayəndələri qeyd edirlər ki, hüquqi təminatlar məhz dövlət orqanları və ictimai birliklərin hüquq normalarına əsaslanan fəaliyyətidir.

Təhlil etdiyimiz mövqeləri əsas kimi götürərək müəyyən dərəcədə onların sintezinə diqqət yetirək. Hüquqi təminatlar müəyyən hüquq normaları, şəxsiyyətin hüquq və azadlıqlarının təmin edilməsində hüquqtətbiqetmə fəaliyyəti və fərdi hüquqi aktlardan formalaşır.

Fikrimizcə, sonuncu mövqenin yəqinliyi və əsaslı olması hüquqi təminatların funksional təyinatı ilə şərtləndirilir. Mahiyyətcə o fərdin hüquq və azadlıqlarının etibarlı mühafizəsinin faktiki həyata keçirilməsindən ibarətdir.

Azərbaycan Respublikasında qaçqın və məcburi köçkünlərin hüquqi təminatlarının reallaşdırılması son nəticə olaraq onların hüquq və vəzifələrini nizamlayan hüquqi göstərişlərin icrasının təşkili ilə şərtləndirilir.

Respublikamızda qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusunun hüquqi (xüsusi) təminatları nəzərdən keçirilərkən Konstitusiyamızın 148-ci maddəsi xüsusi qeyd edilməlidir. Belə ki, milli qanunvericilik konstruksiya baxımından bütöv, iyerarxiya ilə qurulmuş şaxəli sistemdir. Onun elementləri bir-biri ilə struktur, funksional və s. əlaqələrdə olurlar. Məhz belə əlaqələrin mövcudluğu digər hüquq normaları ilə bağlılıqda və asılılıqda olan hər bir konkret hüquq normasının reallaşdırılmasının xüsusiyyətlərini qabaqcadan müəyyənləşdirir. Daha dəqiq desək, konstitusion dəyərlərin müdafiəsi dövlətin fəaliyyətinin prioritetini təşkil edir.

Hesab edirik ki, qaçqın və məcburi köçkünlərin inzibati hüquqi statusunun hüquqi təminatlarının təhlili prosesində Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsində qanunvericiliyimizin tərkib hissəsi kimi təsbit olunan (ratifikasiya prosesindən sonra) beynəlxalq normativ-hüquqi aktlara da diqqət yetirilməsi məqsədəuyğundur. Belə ki, qaçqın və məcburi köçkünlərin hüquq və vəzifələrinin təmin edilməsindəki üsulların digərlərindən əsas fərqi qanunvericiliklə müəyyən edilmiş hüquqtətbiqetmə prosedurasının fərqli olmasıdır. «Qaçqınların statusu haqqında» 28 iyun 1951-ci il tarixli Konvensiyaya əsasən qaçqın statusu alan fərdin şəxsi statusu ona sığınacaq verən dövlətin və ya həmin fərdin yaşadığı dövlətin qanunvericiliyi ilə müəyyən olunur. Ancaq həmin fərdin qaçqın düşənə kimi əldə etdiyi hüquqları, eləcə də nikahdan yaranmış hüquqları sığınacaq vermiş dövlətin qanunvericiliyi

ilə nəzərdə tutulduğu hallarda tanınır və tənzimlənir. Barəsində danışılan Konvensiya ilə qaçqın statusu verilən şəxslərin daşınar və daşınmaz əmlakla bağlı müvafiq hüquqları da tanınır (6, 2). Daha dəqiq desək, sığınacaq verən dövlətlərin hakimiyyət orqanları qaçqınların daşınar və daşınmaz əmlak əldə etmələri, eləcə də icarə və digər müqavilələrin iştirakçısı qismində çıxış etmələri üçün münbit şərait yaratmalıdırlar. Bu beynəlxalq normativ sənəddə qeyd olunan hüquqlarla yanaşı, qaçqın statusu alan fərdlər üçün sığınacaq verən dövlətin vətəndaşlarının məxsus olduqları ixtira, istehsalat, ticarət markaları, elmi, bədii ədəbiyyat əsərləri yaratmaq hüquqları da təsbit olunmuşdur.

Hüquqi təminatlar iqtisadi, sosial, siyasi və ideoloji təminatlarla sıx və qarşılıqlı əlaqədə olub, onlardan törəyir. Hüquqi təminatlar ümumi əlamətə malik olub, sahəvi qanunvericilik aktlarında təsbit olunur. Həmin aktlar vasitəsilə qaçqın və məcburi köçkünlərin hüquq və vəzifələri nizamlanır, onların həyata keçirilmə qaydası müəyyən edilir. Hesab edirik ki, yalnız qaçqın və məcburi köçkünlərin hüquq və vəzifələrini həyata keçirməkdə tənzimləyici funksiyaya malik olan hüquq normaları bilavasitə hüquqi təminatlar hesab edilə bilər. Məsələn, qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinə əsasən qaçqın statusu alan şəxs iş və ya yaşayış yeri əldə edənədək xüsusi ayrılmış yerlərdə, lakin ən çoxu üç ay müddətində haqq ödəmədən yaşamaq; haqq ödəmədən müvəqqəti yaşayış yerinə getmək, əmlakını aparmaq və s hüquqlara malikdir (7, 2).

Təcrübi baxımdan qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusunun hüquqi təminatları inzibati-hüquq normalarının tətbiqi ilə sıx əlaqədə olur. Qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusunun təminatlarının reallaşdırılması prosesində dövlət-hakimiyyət orqanlarının fəaliyyəti müəyyən mərhələlərlə həyata keçirilir. Bununla əlaqədar qaçqın və məcburi köçkünlərə məxsus olan hüquqların inkişafı mexanizmində aşağıdakılar vurğulanmalıdır:

a) hüquq qabiliyyəti - müəyyən hüquqlar kompleksinə malik olmaq üçün qaçqın və məcburi köçkünün subyektiv imkanıdır;

b) hüquq statusu - dövlətin hüquqi aktlarında təsbit olunmuş, lakin hələ hüquq münasibətlərinə çevrilməmiş qaçqın və məcburi köçkünlərin hüquq, vəzifə və məsuliyyətidir;

c) hüquqi səlahiyyətlər - konkret hüquq münasibətlərində qaçqın və məcburi köçkünlər tərəfindən reallaşdırılan hüquqlardır.

Əcnəbi vətəndaş olan qaçqınların hüquq və vəzifələr kompleksinə sahib olmaq imkanına dövlətimiz zamin durur. Belə ki, «Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında» Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinə əsasən milli qanunvericilik aktlarında başqa hal nəzərdə tutulmayıbsa, qaçqınlar Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarından istifadə edir, onlarla eyni vəzifələri daşıyırlar (7, 1). Həmin müddəaya görə əcnəbi vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər qanunla və beynəlxalq sazişlərlə təyin olunmuş hallardan

başqa vətəndaşlar ilə eyni hüquqlara malikdirlər. Bizim dövlətin vətəndaşı olan məcburi köçkünlər vətəndaşlara şamil edilən bütün hüquq və vəzifələr kompleksinə malikdirlər.

«Qaçqın və məcburi köçkünlər haqqında» Azərbaycan Respublikasının Qanununda qaçqın kimi tanınması haqqında ərizə ilə müraciət edən şəxslər (namizəd qaçqın) və ya qaçqın statusunu itirmiş şəxslər üçün hüquqların təminatları nəzərdə tutulur. Məsələn: «Qaçqın və məcburi köçkünlər haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə əsasən qaçqın düşmə səbəbləri ölkədə davam edərsə (yəni şəxsin dövləti tərk edib qaçqın vəziyyətinə düşməsinə əsas olmuş şərait) qaçqının iradəsi ziddinə vətəndaşı olduğu dövlətin ərazisinə qaytarılması yolverilməzdir (7, 1).

Şəxsiyyətin hüquqlarının mühafizəsi və müdafiəsində təşkilati-hüquqi təminatlardan biri də müraciət etmək hüququdur. Azərbaycan Respublikası Konstitusiyasının 26-cı maddəsinin II hissəsinə əsasən dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir (1, 11). Bu normanın məzmunundan aydın olur ki, qaçqın və məcburi köçkünlər də dövlət-hakimiyyət orqanlarının təminatlarından tam şəkildə istifadə edə bilərlər. Məsələyə tam dəqiqlik gətirmək üçün Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə diqqət yetirək. Həmin maddəyə əsasən hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər (1, 21).

Hüquq və azadlıqların təminatı mexanizmi subyektinə görə üç yerə bölünür:

-məhkəmə vasitəsilə müdafiə mexanizmi;

-icra hakimiyyəti orqanları vasitəsilə müdafiə mexanizmi;

-beynəlxalq təşkilatlar vasitəsilə müdafiə mexanizmi (3, 122).

«Vətəndaşların müraciətlərinə baxılması haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən, müasir şəraitdə vətəndaşların müraciətlərinin əsas növləri təklif, ərizə və şikayətlərdən ibarətdir (11, 1).

Şəxsin hüquq və azadlıqlarına bilavasitə təsir edən sənəd və materiallarda olan informasiya üçün qanunvericilikdə məhdudiyyətlər nəzərdə tutulmamışdırsa, onun belə sənəd və materiallarla tanış olmaq hüququnu təmin etmək üçün vəzifəli şəxslər həmin sənəd və materialları vətəndaşa təqdim etməyə borcludurlar.

Qanunvericilikdə başqa müddət nəzərdə tutulmayıbsa, məhkəməyə şikayətlə müraciət edilməsinin aşağıdakı müddətləri vardır:

- hüquq və azadlıqlarının pozulmasının vətəndaşa məlum olduğu gündən bir ay keçənədək;

- şikayətin təmin edilməməyi barədə yuxarı orqan və ya vəzifəli şəxs tərəfindən yazılı cavabın verildiyi gündən bir ay keçənədək;

- Azərbaycan Respublikasının qanunvericiliyində başqa müddət nəzərdə tutulmamışdırsa, vətəndaş şikayətin verildiyi gündən bir ay müddətində ona

cavab almadıqda bu müddətin tamam olduğu gündən bir ay keçənədək;

- İnzibati tənbehin verilməsi barədə qərardan həmin qərarın surətinin təqdim edildiyi və ya şəxsə elan edildiyi gündən 10 gün keçənədək.

Şikayətin verilməsi müddəti üzürlü səbəbdən ötürülübsə, həmin müddət məhkəmə tərəfindən bərpa oluna bilər.

Azərbaycan Respublikasının qanunvericilik aktlarının müddəalarına əsasən Azərbaycan Respublikasının təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının səhvi və ya sui-istifadəsi nəticəsində barəsində məhkəmənin bəraət hökmü çıxarılan şəxsin cinayət təqibinə məruz qalması, yaxud şəxsin barəsində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi və ya şəxsin barəsində islah işləri, inzibati həbs və ya cərimə növündə inzibati tənbeh tətbiq edilməsi nəticəsində həmin şəxsə vurulmuş ziyan ödənilir (10, 1).

M.Qəfərovun fikrincə, cinayət mühakimə icraatında şəxsiyyətin bir sıra konstitusion hüquqları Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində cinayət mühakimə icraatının əsas prinsipləri kimi təsbit olunmuşdur (5, 64).

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi sahəsində qəbul edilən qanun qüvvəli aktlarla dövlət orqanları, fiziki və hüquqi şəxslər üçün xüsusi hesab olunan qanundan irəli gəlməyən səlahiyyətlər və vəzifələr müəyyən edilə bilməz. Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində şəxsə vurulmuş fiziki və mənəvi ziyan mülki qanunvericiliklə nəzərdə tutulmuş qaydada ödənilir.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının səhvi və ya sui-istifadəsi nəticəsində zərər çəkmiş şəxsin (bu şəxs öldüyü, yaxud fəaliyyət qabiliyyətini itirdiyi hallarda isə - onun hər hansı qohumunun) tələbi ilə məhkəmə və ya istintaq orqanı iki həftə müddətində bu barədə həmin şəxsin əvvəlki və ya hazırkı iş yerinə, təhsil aldığı yerə, yaşayış yerinə məlumat verməli, habelə şübhəli və ya təqsirləndirilən şəxsi ləkələyən məlumatlar dərc edən kütləvi informasiya vasitəsi vətəndaşın təqsirsizliyini şübhə altına almadan bir ay müddətində iş üzrə yekun qərarı haqqında məlumat verməlidir.

Dövlət hakimiyyəti orqanları, idarələr, təşkilatlar, müəssisələr, onların rəhbərləri və digər vəzifəli şəxsləri müraciətdə irəli sürülən məsələlərin həlli, onların səlahiyyətinə aid olmadıqda, bunları beş gündən gec olmayaraq müvafiq təşkilata göndərir və bu barədə müraciət edənə məlumat verir, şəxsi qəbul zamanı isə hara müraciət etmək lazım olduğunu izah edir.

Vətəndaşların şikayətlərini baxılmaq üçün qanunazidd hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilən orqanlara və ya vəzifəli şəxslərə göndərmək qadağandır.

Şəxs dövlət orqanlarının və yerli özünüidarə orqanlarının, müəssisələrin, idarələrin və təşkilatların, ictimai birliklərin, vəzifəli şəxslərin onun hüquq və azadlıqlarını pozan, hüquq və azadlıqlarının həyata keçirilməsinə maneə olan qərar və hərəkətlərindən (hərəkətsizliyindən), habelə belə qərarların və hərə-

kətlərin qəbul edilməsi üçün əsas olmuş rəsmi informasiyadan məhkəməyə şikayət etmək hüququna malikdir.

1 yanvar 2011-ci il tarixdən qüvvəyə minən «İnzibati icraat haqqında» Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasının Konstitusiyası ilə nəzərdə tutulan hüquqlarını həyata keçirmək istəyən hər bir şəxsin müraciəti, yaxud səlahiyyətli inzibati orqanın öz təşəbbüsü üzrə inzibati aktın qəbul olunması ilə nəticələnən inzibati prosessual fəaliyyəti tənzimləyir.

Qeyd edilən inzibati prosessual fəaliyyət özündə inzibati aktın qəbul edilməsi və ya orqanın faktiki xarakterli hərəkətləri ilə əlaqədar inzibati icraatın aparılmasını ehtiva edir. İnzibati icraat - qanunla müəyyən olunmuş inzibati orqanlarda vətəndaş və ya təşkilatın müraciəti əsasında, yaxud inzibati orqanın öz təşəbbüsü ilə həyata keçirdiyi və hüquqi təsiri idarədaxili hesab olunmayan prosessual fəaliyyətdir (4, 1).

Hesab edirik ki, adı çəkilən qanunun hüquqi tənzimlənməsi çərçivəsində inzibati hüququn subyekti kimi qaçqın və məcburi köçkünlərin də inzibati-hüquqi statusunun hüquqi təminatlarının müstəvisi genişlənəcəkdir.

Qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusunun təminatına dair fikirlərə əsaslanaraq, aşağıdakı nəticələri çıxarmaq olar:

1. Azərbaycan Respublikasında qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusunun təminatları dedikdə, dövlət hakimiyyət subyektləri ilə münasibətdə göstərilən şəxs kateqoriyası üçün hüquq, vəzifə, qanuni maraqların etibarlı mühafizəsinin və ya müdafiənin reallaşdırılmasını təmin edən şərt və vasitələri (normativ) başa düşmək lazımdır.

2. Sistem daxilində sıx və ayrılmaz əlaqədə mövcud olan təminatlar yalnız qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusunun məzmunu üçün əhəmiyyətli deyil. O həm də dövlət ərazisində şəxsiyyətin hüquq, azadlıq və qanuni maraqlarının təmin edilməsinin göstəricisidir.

3. Qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusunun bütün növ təminatları ümumi (iqtisadi, sosial, ideoloji, siyasi və s.) hüquqi və təşkilati növlərə bölünə bilər.

4. Qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusunun milli təminatlar sistemi mahiyyətcə onların hüquq və azadlıqlarının reallaşdırılması ilə yanaşı, həm də qanunvericiliklə müəyyən edilmiş vəzifələrinin icrasına xidmət edir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 67 s.
2. Abışov V, İsmayılov A, Nəcəfquliyev R. İnzibati hüquq: Dərs vəsaiti. I hissə. Bakı, Səda, 2007, 328 s.
3. Əsgərov Z. Konstitusiya hüququ. Dərs vəsaiti. B: BDU, 2002, 632 s.
4. İnzibati icraat haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: «Hüquqi dövlət və qanun» MMC. 2010, 32 s.
5. Qəfərov M. Azərbaycan Respublikasının cinayət prosesində şəxsiyyətin hüquqlarının təmin edilməsi. Bakı: Qanun, 2006, 248 s.
6. Qaçqınların statusu haqqında 28 iyun 1951-ci il tarixli Konvensiya – İnsan hüquqları. Beynəlxalq müqavilələr toplusu. Bakı: Azərbaycan, 1998, 336 s.

7. Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında Azərbaycan Respublikası Qanunu – Qaçqınlar və məcburi köçkünlər haqqında normativ-hüquqi sənədlər toplusu. Bakı: Borçalı NPM, 2005, 543 s.
8. Məcburi köçkün ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2010-cu il tarixli Sərəncamı (http://refugee.gov.az).
9. Mehdiyev R. «Qloballaşma dövründə dövlət və cəmiyyət». Fəlsəfə və sosial-siyasi elmlər, 2007, №3, s. 58-75.
10. Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 1999, 22 s.
11. Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 1997, 16 s.
12. Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 1999, 24 s.
13. Vahidov F. Dərslik. Sosiologiya. Bakı: MBM, 2006, 164 s.
14. Ахмедов М. Б. Проблемы охраны конституционных прав и свобод человека и гражданина от преступных посягательств. Баку: Нурлар, 2005, 295 с.
15. Бахрах Д.Н. Административно-правовой статус граждан в России. Екатеринбург: Зерцало, 1998, 268 с.
16. Веоводин Л. Юридический статус личности в России. М.: Спарк, 2004, 128 с.
17. Витрук Н.В. Основы теории правового положения личности. М.: Игпан, 2006, 238 с.
18. Попов Л.Л. Административное право: Учебник. М.: Норма, 2006, 160 с.
19. Хаманева Н.Ю. Административно-правовой статус гражданина в Российской Федерации. М.: Игпан, 2000, 248 с.
20. Юрицин А.Е. Административно-правовой статус беженцев и вынужденных переселенцев в Российской Федерации. Омск: Норма, 2006, 174 с.
21. http://google.az.
22. http://preslib.az.
23. http://refugee.gov.az.

## НЕКОТОРЫЕ ПРОБЛЕМЫ АДМИНИСТРАТИВНО-ПРАВОВОГО СТАТУСА БЕЖЕНЦЕВ И ВЫНУЖДЕННЫХ ПЕРЕСЕЛЕНЦЕВ В АЗЕРБАЙДЖАНЕ

**Р.И.НАДЖАФКУЛИЕВ**

### РЕЗЮМЕ

В настоящей статье автор рассматривает некоторые вопросы административно-правового статуса беженцев и вынужденных переселенцев.

Согласно Закону Азербайджанской Республики «О статусе беженцев и вынужденных переселенцев» беженцами являются лица, оказавшееся за пределами страны проживания и не имеющее возможности возвращения, либо в виду отсутствия такого желания вернуться в страну первоначального проживания из-за возможного преследования по национальной, расовой принадлежности, религиозному убеждению и политическим взглядам.

**Ключевые слова:** право, личность, беженцы, вынужденные переселенцы, статус, гарантии

**SOME PROBLEMS OF ADMINISTRATIVE-LEGAL STATUS OF REFUGEES AND INTERNALLY DISPLACED PERSONS OF AZERBAIJAN**

**R.I.NADJAFGULIYEV**

**SUMMARY**

The article examines some questions of administratrative legal status of refugees and internally displaced persons.

The author studies the person's legal status as a guarantee of rights and freedoms and analyzes the appropriate legal guarantee system in the legislation.

**Key words:** law, identity, refugees, internally displaced persons, status, security